# Milli kimliyin formalaşmasında Ana dilinin gücü




21 fevral bütün dünyada Beynəlxalq Ana Dili Günü kimi qeyd olunur. Bu gün milli kimliyin formalaşmasında dilin gücünü və mədəni irsin qorunması üçün edilən fədakarlıqları diqqətə çatdırır.

UNESCO-nun Beynəlxalq Ana Dili Günü münasibətilə yaydığı açıqlamada qeyd edilir ki, 21 fevral bütün dünya xalqlarına dil müxtəlifliyinin və öz ana dilində danışmaq hüququnun vacibliyini xatırladır.

UNESCO-nun hesablamalarına görə, dünyada ümumilikdə danışılan və ya yazılan 8324 dil var. Onlardan 7 mini hazırda tətbiq edilir. Yalnız 315 dildən tədris vasitəsi kimi istifadə olunur. Hər iki həftədə bir dil yox olur. Bununla belə, dil müxtəlifliyi təhlükə altındadır, çünki sürətlə dəyişən dünyada bir çox dillər sürətlə yox olur. Ana dili öyrənməni, kommunikasiya və tənqidi düşüncəni yaxşılaşdırır, lakin dünya üzrə təhsilalanların 40%-i bu qabiliyyətə malik deyil. Çoxdilli təhsil bu boşluqları aradan qaldırır, ünsiyyəti gücləndirir, sosial-emosional inkişafı təşviq edir, gender bərabərliyi, iqlim dəyişiklikliyi ilə mübarizə və davamlı icma inkişafı kimi qlobal hədəfləri dəstəkləyir. UNESCO inklüziv təhsil və daha məzmunlu qlobal qarşılıqlı əlaqə üçün güclü vasitə kimi çoxdilliliyi müdafiə edir.

Beynəlxalq Ana Dili Gününün 25-ci ildönümünü qeyd etməklə UNESCO bu il sülhü və qarşılıqlı anlaşmanı gücləndirmək üçün dil müxtəlifliyinin və çoxdilliliyin vacibliyini təsdiqləyir. Bu əlamətdar hadisə ana dillərin, mədəni irsin qorunması və təhsilin yaxşılaşdırılması üçün on illərlə davam edən səyləri vurğulayır.

UNESCO bu əlamətdar tarixin 25 illiyi münasibətilə "Dillər vacibdir: Beynəlxalq Ana Dili Gününün gümüş yubileyinin qeyd edilməsi" adlı tədbir təşkil edib. Tədbirdə 2030-cu ilə qədər daha əhatəli və davamlı bir dünya qurmaq üçün dil müxtəlifliyi sahəsində tərəqqinin sürətləndirilməsinin vacibliyi vurğulanıb. Qlobal inkişaf hədəflərinə çatmaqda dillərin rolunu vurğulayan tədbirdə çoxdilli təhsilin uğurlu təcrübələri nümayiş etdirilib və bütün icmaların maraqlarına hörmət edən inklüziv dil siyasətinin təbliği aparılıb.

Qeyd edək ki, Beynəlxalq Ana Dili Günü 1952-ci il fevralın 21-də Banqladeşin Benqal şəhərində öz ana dilinin rəsmi dil olması uğrunda mübarizə aparan 4 tələbənin öldürülməsi hadisəsini bir daha insanların xatirəsində canlandırır.

1999-cu ildə UNESCO-nun Baş Konfransının 30-cu sessiyasında 21 fevralın Beynəlxalq Ana Dili Günü kimi qeyd olunması qərara alınıb. Bu gün 2000-ci ildə dünya təqviminə daxil edilib. Bundan sonra BMT ölkələri dünya xalqlarının dillərini qorumağa kömək etməyə çağırıb.

UNESCO-nun Baş Konfransı tərəfindən üzv ölkələrə bildirilib ki, həmin gün məktəblərdə, universitetlərdə ana dilinin əhəmiyyəti ilə bağlı tədbirlər, konfranslar, seminarlar keçirilsin.

**Oruc MUSTAFAYEV**

Azərbaycan müəllimi.- 2025.- 22 fevral, №7.- S.4.